

*MAŞALLAH MƏFTUN*

# "AZƏRBAYCANDA KİTAB MƏDƏNİYYƏTİ"

## MONOQRAFİYASI TƏQDİM OLUNDU

**İslam Sadıq Azərbaycan ədəbiyyatında qədərincə tanınan ədəbi simalardan biridir. O,1970-ci illərdə kiçik həcmli şeirləriylə, publisistik yazılarıyla ədəbiyyata gəlmişdir. Mənəviyyatca pak olan, qaynar gəncliyini arxivlərdə, kitablar aləmində keçirən gənc şairin ilk kitabı 1983-cü ildə "Gənclik" nəşriyyatında "Torpaq səxavəti" adıyla işıq üzü gördü. Kitab yayılandan sonra rayonlardan, bölgələrdən müəllifə yığın-yığın məktublar gəlm?əyə başladı.Yaxşı yadımdadı, ədəbi tənqid, ekran-efir öz sözünü dedi. Niyə də deməməliydi.**

Axı ədəbiyyata öz səsiylə, dəst-xəttiylə, nəfəsiylə bir gənc şair gəlirdi. Son vaxtlar İslam Sadığın bir-birinin ardınca "Koroğlu kim olub" (Bakı, Azərnəşr, 1998), "Azərbaycan "Koroğlu" eposu" (Bakı, 2015), ("Şumerdə izim var" (Bakı, Azərnəşr, 2008), "Şumer ədəbiyyatı" (Bakı, Azərnəşr, 2013), "Şumer və türk dastanları" (Bakı, Azərnəşr, 2014) kimi maraqlı kitabları işıq üzü gördü. Bunların hər biri elmdə bir hadisə kimi qarşılandı. İslam Sadıq Azərbaycanda şumer ədəbiyyatı, tarixi, mədəniyyəti haqqında bu cür sanballı əsərlər yazmış ilk müəllifdir. Sevindirici haldır ki, "Azərbaycanda kitab mədəniyyəti" adlı sanballı kitabı da ilk dəfə İslam Sadıq yazdı. Bu kitab Azərbaycan Respublikasının Mədəniyyət nazirliyi tərəfindən nəfis tərtibatla nəşr olundu.

### *Ötən həftə*

Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda İslam Sadığın "Azərbaycanda kitab mədəniyyəti" adlı monoqrafiyasının təqdimatı keçirildi. Tədbiri İslam Sadıq özü açdı, gələnləri salamladı və sözü aparıcı, AMEA Folklor İnstitutunun Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoya verdi. O bildirdi ki, "bu gün imzası geniş oxucu kütləsinə yaxşı tanış olan, özünün şeir kitabları və elmi monoqrafiyaları ilə Azərbaycan poeziyasını, ədəbiyyatşünaslığını, publisistikasını, folklorşunaslığını zənginləşdirən, azərbaycanşünaslığın yaradıcılarından biri olan İslam Sadığın təzə çapdan çıxmış kitabının işığına toplaşmışıq. Onun sözlərinə görə öz zəngin poetik və elmi yaradıcılığı olan İslam Sadıq etnik milli köklərə bağlı bir insandır. O, azərbaycanşünas alimdir və həmişə Azərbaycana bağlı olaraq qalır. Onunla birlikdə bir neçə konfransda, hətta Türkiyədə keçirilən konfranslarda olmuşam. O həmişə vətənin bir qeyrətli oğlu, biliyinin zənginliyi və təfəkkürünü dərinliyi ilə seçilən bir tədqiqatçı kimi söylədiyi fikirləri inandırıcı arqumentlərlə təsdiqləyir, tarixi gerçəklikləri qaranlıqlar içərisindən gün işığına çıxarmağı bacarır".

### *Professor Sabir Tağı*

**bildirdi ki, "İslam Sadıq geniş düşüncəli insandır. Onun poeziyası da, elmi yaradıcılığı da sərhədlərə sığışmır. İslam Sadıqla elmin istənilən sahəsinə dair maraqlı və məntiqli söhbət etmək mümkündür.**

İslam Sadıq Bakı Avrasiya Universitetində kafedra müdiri olanda məni ora dəvət etdi. O zaman mən respublikamızdakı memarlıq abidələrini araşdırırdım. Tez-tez çətinliklərim olurdu, onda İslam Sadığa üz tuturdum. Onun bu sahədə mənə çox böyük köməkliyi dəyib. Bir şeyi burada vurğulamaq istəyirəm. "Ölkəşünaslıq" fənnini keçməliydim. Ancaq bu barədə proqram da yoxuydu, ədəbiyyat da. İslam Sadıq bu fənn haqqında mənə elə aydın, dolğun, hərtərəfli bilgi verdi ki, mənim heç bir çətinliyim olmadı. Belə adamları az-az görmüşəm. Mən İslam Sadığı əsl vətəndaş, əsl alim, ilk öncə bir ziyalı kimi tanıyıram".

**Tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimli bildirdi ki, "İslam Sadığın "Azərbaycanda kitab mədəniyyəti" monoqrafiyasını oxumuşam. Kitab səkkiz fəsilə bölünüb. Burada ən qədim dövrdən müasir dövrə qədər kitabın tarixi izlənilib, keçdiyi inkişaf yollarına işıq salınb, kitab haqqında çox bilgilər verilib. Bu kitabdakı ən böyük yeniliklərdən biri "kitab" sözünün açılmasıdır. Bu günə qədər hamımız elə bilirdik ki,"kitab" ərəb sözüdür. Sən demə heç də belə deyilmiş. Ərəblərdən qabaq şumerlər olub. Onlar gil kitabları yaradıblar. Kitab sözü ki (yer) və təb (üzünü çoxaltmaq) sözlərindən yaranıb. İslam Sadıq qətiyyətlə sübut etdi ki, "kitab" sözü şumerlərdən gəlir.**

Yeri gəlmişkən deyim ki, bu kitabda Qobustan məsələsi qoyulub və İslam



Sadıq Azərbaycandakı Qobustanın dünya kitab mədəniyyətinin ilk beşiyi olduğunu isbat edib. Eləcə də sözügedən monoqrafiyada Nəsirəddin Tusinin Marağa rəsədxanasının kitabxanasında 400 min əlyazma kitab olduğunu ortalığa qoyub ki, bu fakt indiyə qədər çoxlarına bəlli deyildi".

"Azərnəşr"in baş redaktoru, sabit millət vəkili Əlövsət Ağalarov söylədi ki, "38 ildir İslam Sadıqla bir nəşriyyatda işləyir. İslam Sadıq yaxşı redaktordur, kitabın bilicisidir. 1980-ci illərdən özünü kitaba bağlayıb. Bu kitabı da yalnız İslam Sadıq yaza bilərdi. Burada bir sirri açmaq istəyirəm. "Azərbaycanda kitab mədəniyyəti" kitabını ömründə əlinə qələm alıb bir cümlə yaza bilməyən Adil adlı bir nəfər oğurlayaraq, öz adına çap etdirmişdir.

### *Məhkəmə yolu*

**ilə bu kitab İslam Sadığın özünə qaytarıldı. Və bu gün biz bu kitabın işığına yığışmışıq. Mədəniyyət Nazirliyinə öz təşəkkürümüzü bildiririk ki, öz dəstəyi ilə bu kitabı çap eləyib. Sözümün sonunda demək istəyirəm ki, İslam Sadıq ədəbiyyatın qara fəhləsidir. Biz bura vaxt itirməyə yox, nəsə aparmağa gəlmişik".**

Professor Yaşar Qasımbəyli vurğiladı ki, "bu kitabdan bizə məlum oldu ki, Qobustanı bizə qaytaran Səməd Vurğun olub. Sən demə İkinci Dünya Müharibəsindən sonra Qobustanı daş karxanası eləyib yazılı daşları doğrayırlarmış. Səməd Vurğun bu vəhşiliyin qarşısını alıb və Qobustan kimi qədim mədəniyyət ocağını kimlərinsə tamahının qurbanı olmağa qoymayıb. Bu kitab bizim tariximizə, ədəbiyyatımıza və mədəniyyətimizə qarşı çıxanlara çox tutarlı bir cavabdır. Yeri gəlmişkən deyim ki, bu kitabda gözəl elmi dil var.

Bizim dərsliklərimiz də, digər kitablarımız da belə dildə yazılmalıdır. Mən bir ədəbiyyatşünas alim kimi bu kitabı yüksək qiymətləndirirəm".

### *Mədəniyyət Nazirliyinin*

**Kitabxana Kollektorunun direktoru Ələddin Əsədzadə "sözügedən kitabın ilk oxucusu olduğunu söylədi. Jurnalistika fakültəsində dərsliklərin nə vəziyyətdə olduğunu yaxşı bilirik. Yararlı dərsliklərimiz çox azdır. İslam müəllimin "Azərbaycanda kitab mədəniyyəti" monoqrafiyası əsl dərslikdir".**

Professor Qüdrət İsaqov İslam Sadığın Səməd Vurğun haqqında yazdığı bir məqaləni xatırlatdı və bildirdi ki, "böyük şairin qarasınca ağzını allah yoluna qoyub danışanlara hələ bu cür tutarlı cavab verilməmişdi. Mən elə düşünürəm ki, həmin məqalə Səməd Vurğun haqqında gözəl bir tədqiqat əsəridir. Belə yazılar az-az yazılır. İslam Sadıq bir çox ilklərə imza atıb. "Azərbaycanda kitab mədəniyyəti" monoqrafiyası da Azərbaycanda ilk dəfə yazılmışdır. Bu, təkcə kitabşünaslar yox, hamı üçün maraqlı kitabdır. Əminəm ki, çoxlarının, daha doğrusu, kitabı sevənlərin stolüstü kitabı olacaq".

AMEA Fəlsəfə İnstitutunun elmi işçiləri Ruşan Ruşanzadə, Telman Quliyev, Bakı Dövlət Universitetinin müəllimi, kitabşünas Leyla Abasova, AMEA Folklor İnstitutunun elmi işçiləri Qalib Sayılov, Tahir Orucov, tanınmış şairlərdən Tahir Tais, Musa Ələkbərli, Əkbər Qoşalı, Kərəm Kürqraxlı, Nazim Əlioğlu, Adil Cəmil, Maşallah Məftun, Ağacəfər Həsənli, Aygün Hüseyinli, Füzuli Ramazanoğlu və başqaları İslam Sadığın uğurlarından danışaraq bildirdilər ki, İslam azad təfəkkürlü müdrik, öz əqidəsinə, məsləkinə sadiq insandır. Onun poeziyası da, elmi və publisistik əsərləri də orijinaldır. Çünki onda bir şəxsiyyət bütövlüyü var. Bizi sevindirən odur ki, belə bir Azərbaycan ziyalısı var. İslamın ürəyinin böyük işığı var. Hesab edirik ki, o öz nurunu bütün türk dünyasına salacaq".

### *Bir vaxtlar*

Bakı Avrasiya Universitetində kafedra müdiri işləyən İslam Sadıq hazırda orada dərs deməsə də, onun vaxtilə dərs dediyi tələbələr böyük həvəslə bu tədbirə qatılmışdılar. İslam Sadığın yetirmələrindən İlkin Elsevər, Eltac Elmanoğlu, Avtandil Əliyev, Aytac Muradlı, Fatimə Sadıqova, Bahar Quliyeva, Turac Süleymanova, Səidə Əhmədova və başqaları çıxış edərək İslam Sadığın bir müəllim kimi biliyinin zənginliyindən, dərsləri necə böyük maraqla keçdiyindən, tələbələri öyrətmək üçün əlindən gələni əsirgəmədiyindən, həm də insan kimi qayğıkeşliyindən, vətənpərvərliyindən və millətsevərliyindən danışdılar.

**Tədbirin sonunda İslam Sadıq "vaxt ayırıb bu tədbirə qatıldıqlarına görə iştirakçılara öz təşəkkürünü bildirdi. Səmimi və dəyərli sözlərinə görə çıxışçıların hər birinə sağ olun dedi.Tələbələrin gəlişindən daha çox sevindiyini bildirdi. O qeyd etdi ki, əgər mən hazırda həmin universitetdə işləsəydim tələbələrin bu tədbirə qatılmasından indiki qədər sevinməzdim. Mən orada işləmədiyimə görə tələbələrin mənə qarşı bu sevgilərinin səmimiliyinə inanıram".**